## Qərar № 3/10

# Mərkəzi Seçki Komissiyasının Nəzarət-təftiş xidməti tərkibinin yenidən formalaşdırılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 97.1-ci maddəsinə, "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 1.1-ci bəndinə uyğun olaraq seçki komissiyalarına ayrılmış pul vəsaitinin təyinatı üzrə istifadəsinə, seçki fondları vəsaitinin düzgün qeydə alınmasına və istifadəsinə, pul vəsaitinin daxilolma mənbələrinə nəzarəti təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında Nəzarət-təftiş xidməti yaradılır.

Nəzarət-təftiş xidmətinin tərkibinə Mərkəzi Seçki Komissiyası üzvlərindən, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Azərbaycan Respublikası Mərkəzi Bankının və s. orqanların mütəxəssisləri daxil edilməli və Nəzarət-təftiş xidmətinin rəhbəri xidmətin tərkibinə daxil edilmiş komissiya üzvləri sırasından təyin edilməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 97.1-ci maddələrinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzarət-təftiş xidməti haqqında Əsasnamə"nin 1.1-ci, 1.2-ci,1.3-cü və 1.4-cü bəndlərinə əsasən **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının Nəzarət-təftiş xidmətinin tərkibi aşağıdakı kimi formalaşdırılsın:

Ramiz İbrahimov - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

İlham Məmmədov - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

Tofiq Həsənov - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyi Maliyyə şöbəsinin müdiri;

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsi;

Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndəsi;

Azərbaycan Respublikası Hesablama Palatasının nümayəndəsi;

Azərbaycan Respublikası Mərkəzi Bankının nümayəndəsi.

2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov Nəzarət-təftiş xidmətinin rəhbəri təyin edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

***29.04.2016***